# Media professoru Nəsir Əhmədli

**Bakı Dövlət Universitetinin professoru Nəsir Əhmədlinin 80 illik yubileyinə həsr olunmuş toplu çapdan çıxıb. "Nəsir Əhmədli-80 – Media yeni müstəvidə" adlı respublika elmi konfransının materialları əsasında hazırlanan elmi məcmuə Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının təşəbbüsü ilə hazırlanıb.**




Bu barədə kafedra müdiri Aynur Nəsirova məlumat verib. O, bildirib ki, konfrans dəyərli həmkarımızın iştirak etdiyi son tədbir olub. Özünü qələm əhli adlandıranların "Ustad" dediyi şəxsiyyətlərdən olub Nəsir müəllim. Onun özünün də iştirak etdiyi son tədbir fakültənin professor, müəllim və tələbə heyəti, eləcə də respublikamızın bütün media aləmi üçün ustad dərsi kimi yaddaşlara həkk olunub. Təqdim etdiyimiz toplunun ilk məqaləsi də Nəsir Əhmədlinin özünə məxsusdur. Professor məqaləsində jurnalistin nitq mədəniyyəti və söz axtarışından danışır, Azərbaycan dili lüğətinin zənginləşdirilməsi ilə bağlı sonuncu tövsiyələrini təqdim edir.

Aynur xanım daha sonra deyib ki, əsasən jurnalistika fakültəsinin professor-müəllim heyətinin elmi araşdırmalarının yer aldığı toplu hələ professor Nəsir Əhmədlinin sağlığında planlaşdırılmışdı və onun məsləhətləri ilə tərtib edilib. Bu gün biz ürəklə deyə bilərik ki, rahat uyu, ustad, ənənələrin yaşayır, arxanda adını yaşadacaq böyük bir elmi ordu qoymusan, biz səni elmdə yaşadırıq...

Kafedra müdiri onu da bildirib ki, Nəsir Əhmədliyə həsr edilən elmi məcmuə Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının nəşrlər seriyasının ilk təqdimatıdır və ənənəni davam etdirmək fikrindədirlər.

***"Xalq qəzeti"***

Xalq qəzeti.-2022.- 23 dekabr.- S.14.